*Hadiyeva Sonaxanım.Əbdürrəhman Dainin kitabları*
*// Elmi əsərlər,2020,2(11),iyul-dekabr,s.34-39.*

UOT 821.512.162

**Hadiyeva Sonaxanım,**
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç., 26*
e-mail: sonaxeyal@mai

# ƏBDÜRRƏHMAN DAİNİN KİTABLARI

**Açar sözlər:** *Əbdürrəhman Dai, kitablar, "Rəhimli səyyah", "Fəhlənin nitqi", "Qanqal".*

Əbdürrəhman Dai Bakıda dünyaya gəlmişdir, repressiya qurbanlarındandır. Dainin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda üç çap kitabı saxlanılır: "Rəhimli Səyyah", "Fəhlənin nitqi", "Qanqal". Kitablar ərəb qrafikası ilə dərc edilmişdir.

"Rəhimli Səyyah" nəsr əsəridir. Kitabın üstündə yazılmışdır: "Uşaqlarə məxsus asan dil ilə yazılmış mənfəətli qiraət kitabçasıdır". Tarixi-hicri 1335 – tarixi-miladi 1917. Məktəbin elektrik mətbəəsində təb olındı".

"Müqəddimə" bir cümlədən ibarətdir: Birinci dəfə olaraq "Rəhmli səyyah" namilə qələmə aldığım əsərin qüsuratını möhtərəm və möhtərəmə oqucılardən əfv etməglərini rica və təmənna edirəm". Əsər həcmcə o qədər də böyük deyildir, lakin səkkiz hissədən ibarətdir. Buna kiçik povest də demək olar.

Əsərin məzmunu çox maraqlıdır. Əsərdə kədərli, sevincli, həyəcanlı, hətta qorxulu anlar yaşanılmışdır. Əvvəli nağıl kimi başlayır: "Bir kənddə bir qarı arvad və bir qocə kişi olurdı. Bunlər kasıb oldığından hər səhər qocə durub işləməgə gedirdi və qarı da cəhrəsini götürüb evin bir yanında oturub əgirirdi. Bunlərin on üç yaşındə Əhməd adlu bir oğulləri var idi. Əhməd çalışqan və zirək oldığındən atasına həmişə deyərdi:

-Ata, sən daha qocalmısan, bəsdir bu qədər işlədin, imdi işləmək mənim borcımdır, qoy mən işləyüm və sizi dolandırım...

Atası Əhmədin bu sözlərinə qulağ asmayub hər gün işləməginə gedirdi. Bir gün Əhmədin atasınə bərk soyuq dəgüb azarladı və ona görə işləməgə gedə bilmədi. Əhməd atasını bu haldə görcək hönkür-hönkür ağlamağa başladı. Anası Əhmədin ağlamağını görüb dedi:

-Oğul, bəsdir bu qədər ağladın, atan səsini eşidüb yürəgi xərab olar. İmdi, oğul, sən səhər tezdən get özinə iş tap və bizi ac qoyma. Allah qoysə, atan bir-iki günə saqalub yaxşı olar. Sonrə mən də və atan də sənin qazancın ilə dolanarıq". Əhməd iş axtarmağa gedir.

Əsərin ikinci hissəsində Əhmədin bir səyyaha rast gədiyinin, onunla dialoqunun şahidi oluruq. Onlar şəhərə çatanda ayrılırlar. Əhməd bir bağ görüb yaxınlaşır. Bağbandan iş istəyir, işini görüb qurtaran kimi, pulunu alıb kəndə tərəf yola düşür. Yorulub oturur və yuxuya gedir. Oyananda üç-dört nəfər dəvəçi görür. Onlar məsləhətləşirlər ki, Əhmədi qaçırsınlar. Dəvəçilər Əhmədin yalvarışına, ağlamasına baxmayıb onu bir dəvənin üstünə qoyub aparırlar. Hava qaralanda gəlib karvansarada düşürlər.

Üçüncü hissədə yazıçı göstərir ki, Əhmədin anası Gülpəri Əhməd içün xörək hazır edir, amma nə qədər gözləyir Əhməd gəlib çıxmır. Qonşu Vəli gəlib xəbər verir ki, Əhmədi şəhərdən gələndə tutublar. Gülpəri ağlamağa başlayır, ərini də bu işdən xəbərdar edir. Əhmədin atası da dözməyib vəfat edir. Gülpəri qonşulara xəbər verir, İsmail və Səməndər gəlir, onu səhər tezdən dəfn edirlər. Ərindən və oğlundan əli üzülən Gülpəri cəhrəsini götürüb dolanışığını təmin etmək üçün sap əyirməyə başlayır.

Dördüncü hissədə yazıçı bizi yenə də karvansaraya qaytarır. Səhərə yaxın dəvəçilər yola düşürlər, yatmış Əhmədi də təpiklə durğuzub aparırlar. Meşənin yaxınlığında nahara otururlar. Əhməd qaçmağı düşündüyündən çörəyinin yarısını yeyib, yarısını cibində saxlayır. Dəvəçilər yola düşürlər söhbətə başları qarışır, Əhməd meşəyə qaçır, hündür bir ağaca çıxır. Onlar arxaya baxanda Əhmədi görməyib qayıdıb meşəni axtarırlar, lakin tapa bilməyib peşman qayıdıb "Q" şəhərinə gəlirlər.

Buradan görünür ki, müəllif əsərdə olmuş əhvalatı qələmə almışdır, lakin şəhərin adını yazmamışdır.

Beşinci hissədə Əhmədin ağacdan düşüb meşəni gəzdiyini, bir qurda rast gəldiyini, Allaha dua etdiyini görürük. Meşənin kənarı ilə gedən əlitüfəngli bir kəndli Əhmədin "Ey mənim Allahım, məni tezlik ilə bu qurdın əlindən xilas et" səsini eşidib meşəyə girir, qurdu öldürür. Əhməd başına gələnləri danışır. Onlar gəlib kəndə çatırlar. Kişi arvadına deyir ki, bu uşağı oğulluq gətirib.

Altıncı hissədə səhər yeməyindən sonra kişi kəlləri açır, lazım olan şeyləri arabaya yığır, Əhmədi də yanına mindirüb çölə işləməgə aparır. Əhməd yorulur, dincəlmək istəyir, kişi acıqıanıb onu öldürməklə hədələyir. Yazıçı burada Əhmədin dilindən bir şeir verir:

Fikr eyləyür idim mənə sən rəhm edəcəksən!
Yoqsa nə bilüm işlədübən zülm edəcəksəm.
Ol vəqy yanına bilsə idim qaçmaz idim bən,
Zülm atəşinə bu tənimi yaqmaz idim bən...
Zülm etməgilən çoq, a kişi, bircə sən allah,
Bir də ki məsəl var, deyürəm olgilən agah:
Gər zülm eyləsə acizlərə bir kimsə əgər çoq,
Dünyadən oni xaliqimiz tez eyləyər yoq...

Kişi bunu eşidib daha da rəhmsizləşir. Beləcə beş-altı gün keçir. Əhməd yenə də qaçmağa məcbur olur. Kişi onu tapmayıb evə qayıdır. Müəllif əsərdə o dövrdəki zalım insanların tipik obrazlarını yaratmışdır.

Əhməd xeyli yol gedir, qaranlıq düşəndə yenə qorxmağa başlayır. "Allahə təvəkkül!!." Deyib çayın kənarı ilə getməyə başlayır, lakin qaranlıq olduğundan qurşağacan çamurluğa girir. "Ay Allah!. Bu nə gündır, mənə nicat yolu göstər!" deyüb ağlamağa başlayır. Bir qədər gedəndən sonra bir işıq olan yerə çatır, görür ki, bir qoca kişi fanusi qabağına qoyub Quran oxuyur.

Kişi Əhmədin "Ay əmu, bu gecəlik mənə rəhm eləyüb yatmağə yer ver" sözünü eşidib Quranı bağlayır yerinə qoyur, Əhmədin içəri aparıb kim oldığunu soruşur, Əhmədə təsəlli verib təmiz paltar verir. Sonra yatırlar.

Yeddinci hissədə müəllif bizi həmin kişi ilə tanış edir.

Əvvəllər Məşhədi Zamanın çox varlı idi, aclara, yoxsullara kömək edən,elm oxumağı çox sevən biri olduğunu öyrənirik. Məşhədi Zəman kişi hər iki oğlunu qədim məktəbə qoyubmuş, Əmir çalışqan və zirək olduğundən oxumuş, amma Xəlil fikrini dərsə verməyüb həmişə gəzmək fikrində olmuşdur. Əmir oxuyub molla olur. Atasının pulları ilə keyf edən Xəlil isə nəhayətdə oğurluq edir. Sonralar qardaşına paxıllıq edir öz oğurluğunu onun boynuna atır, Əmir həbs olunur. Sonra Xəlil də yalandən məhkəmə tərəfindən həbsə düşür. Məşhədi Zəman var-yoxunu oğlanlarının üstünə qoysa da onları qurtara bilmir. Kasıblaşır, kəndin kənarındakı evinə köçür, kəndin mal-qarasını otarmaq ilə dolanmağa başlayır. Kənd əhli də Zəman kişiyə kömək edirlər.

Səkkizinci hissədə Əhmədin Zaman kişi ilə naxıra getdiyini, bir neüçə gündən sonra ata-anası üçün darıxdığını bildirən müəllif onun Zaman kişi ilə xudahafizləşib yola düşdüyünü qeyd edir. Əhməd bir qədər gedəndən sonra çayı keçmək lazım gəlir, çay dərin olduğundan ehtiyat edir. Bir də görür ki, əvvəl gördüyü Səyyah gəlir. Əhməd başına gələnləri Səyyaha söyləyir. Səyyah onu qardaşının evinə aparır. Səyyah müəllim tutur, Əhməd dərs oxuyur. Üç ayın müddətində Əhməd birinci və ikinci siniflərin dərsini öyrənir. Sentyabrda Əhməd imtahan verib üçüncü sinifdə oxumağa başlayır. Müəllimlər onun zəkasını görüb az sonra dördüncü sinfə keçirirlər. Əhməd imtahan verib şəhadətnamə alır. Səyyah onun savadını görüb gələn sevtyabrda Əhmədi edadi məktəbə qoymağı idüşünür, yenə də müəllim tutur. Üç aydan sonra sentyabrda Səyyah Əhmədi edadi məktəbə qoyur, Əhməd həvəslə oxuyub edadi məktəbi də qurtarır. Səyyah onu həkimlik oxumaq üçün Moskvaya aparır.Həkimlik şəhadətnaməsini alan Əhməd Səyyahın yanına gəlir. Əhməd xəstələrə müalicə etməyə başlayır və çoxlu pul qazanır. Səyyah Əhməd üçün şəhərin ortasında imarət alır. Bir gün Əhməd səhər tezdən bir fayton tutub kəndə gedir, qapılarına çatdıqda düşüb qapını döyməyə başlayır. Ana-bala görüşürlər. Əhməd atasının ölməyini eşidib ağlayır. Sonra başına gələnləri anasına danışır. Ana Səyyaha dua edir. Əhməd deyir: “Ana, gəl bu köhnə evimizi verək qonşumız yolçi İsgəndərə. Mən mən oqumaqlıq sayəsində çoq pul qazanub şəhərdə bir böyük imarət almışam. Sən də mənim ilə faytonə minüb şəhərə gedək”. Anası razılaşır.

Göründüyü kimi sonluq gözəl olur. Müəllif rəhmsiz insanlarla birlikdə zəmanəsinin insaflı, mütərəqqi insanlarınıln da olduğunu diqqətə çatdırır. Müəllif yazır: “Əhməd Səyyahı yanınə gətirüb özinə ata elədi. Şəhər əhli də bildi ki, çöldə qalan ac bir uşağı həkim edən Səyyah olmışdır. Ona görə şəhər əhli bu gündən başlamış Səyyahə “Rəhmli Səyyah” deyirdilər.

Son.

Yazılan tarixi 7 aprel, 1915 sənə miladi”.

Əbdürrəhman Dainin ikinci kitabı “Fə’lənin nitqi” adlanır. Elə ilk kitabında şeir parçalaraa rast gəldiyimizdən, ikinci kitabın mənzum olduğuna təəccüb etmirik.

Kitabın üstündə yazılmışdılr:

Xazain – fələ

Alacaqsan nə vəqt görüm, söylə,
Qaçmağə tülki tək daban, xazain.

Müəllif: Əbdürrəhma Dai
Naşir: Ağa Hüseyn Qulamov
Baku, 1917.

XII-752/3971 şifrə altında saxlanılır, boz cildə tutulmuşdur. Dainin əsərlərindən sonra “Ğərib çocıqlərə” adlı hekayələr toplusu vardır ki, yazanı: Baş Qələ aşağı məhəllə məktəb ibtidai müəllim Uli Təbibzadə Əbdürrəhim Rəhmi ibn Pərtövdür.

Fəhlənin dilindən sahibkara (xazain) müraciətlə yazılmış əsər belə başlayır:

Görirəm halıni yaman, xazain,
Səbəbin gəl eylə bəyan, xazain.

Gələcək günlərin içün hiç sən
Ağlayub eyləmə fəğan, xazain.

Çoq olub, sən gecə-günüz daim
Keyf edübsən qabaq zəman, xazain.

Sonyalar ilə hər gecə şərabı
İçərək, olmısan piyan, xazain!

Muzdını fələnin də verməyübən,
Dövlətə çatmısan bu an, xazain!

Burada fəhlə rəhmsiz, insafsız sakibkarın uşaqları ucuz qiymətə işlətdiyini, fəhlələri təhqir etdiyini, müxtəlif heyvan adları ilə çağırdığını və "quyruğundan tutub bayıra atacağı ilə hədələdiyini şeir dili ilə vermişdir. müəllif burada fəhlələrin gecə-gündüz çalışdığını, gündə bir abbasıya işlədiyini, xəstə olanda həkimə getməyə belə icazəsi olmadığını, fəhləyə min yalan deyib, aldatdığını vurğulayır, sonra fəhlənin artıq oyandığını, bu yalanları başa düşdüyünü, artıq öz haqqını tələb etdiyini göstərir.

Fələni neştərinlə sancar idün,
Olmış idün o dəm ilan, xazain!

İmdi kərtəngələ olubsan, get,
Özinə axtar aşiyan, xazain!

Eşidərkən bu sözləri sən tez
Niyə oldun o dəm nihan, xazain!?

Getgilən imdi fələnin başına
Misli-pərvanə tək dolan, xazain!

Yenə əvvəlki tək daha gəlsən,
Etmə heç bir şeyə güman, xazain!

Fələnin ğüssəsi səni axır,
Edəcək piran, ey cəvan xazain!

Bir zəman vəqt olar ki, bilmərrə,
Qalmayar səndən heç nişan, xazain!

Dai bu əsərdə artıq yeni dövrün başlandığını göstərir. Fəhlələr haqqını tələb edir, sahibkar qorxur. Artıq intiqam zamanı çatmışdır. Fəhlə sahibkardan haq-hesab istəyir. Artıq fəhlə öncül qüvvədir, fəhləsiz sahibkar heç kimdir. Müəllif əsəri belə yekunlaşdırır:

Yaşasın fələlər rəfaqətlə!...
Həm rəfaqətlə, həm səadətlə!...

Əbdürrəhman Dainin "Qanqal" adlı kitabında müxtəlif mövzulu şeirlər yer alır. "Nikolay dayının Usta Məmmədəli ilə Molla Əbdülhəmidə yazdığı axırıncı məktubi" adlı şeirdə müəllif Nikolayın adından yazır:

Bilsəydim əgər ki, məni təxtdən salacaqlar,
Vallahi, bilin, aləmi viran eləyərdim.
Güllə ilə xəncərlə hamu məxluqi birdən
Tez öldirərək, qanınə ğəltan eləyərdim.
Qars əhli kibi saq qalanı çöllərə sonrə
Avarə salub ac, susız, üryan eləyərdim.
Hamu şəhəri, kəndi iri bombalər ilə
Yeksər dağıdub yer ilə yeksan eləyərdim.

Tezlik ilə Allah məni bilməm nədən ötri
Saldı bin əziyyət ilə, zəhmət ilə narə?
İşrət eləyən günlərimi aldı əlimdən,
İmdi eləyübdir günimi ğəmli və qarə,
Ğəm, ğüssə, kədər çekmədən axır yürəgim lap
Getdikcə şişüb oldi, inan, bir yekə yarə.
Yoqdır daha heç bir nəfər adəm böylə gündə
İnsafə gəlüb rəhm eləsün də məni-zarə.

Kitabda "Bir kişinin fəryadı", "Cavanlarımıza nəsihət", "Rəməzan sinəzəni", "Yenə gəlir", "Nəsihət", "Ər-arvad", "Ögüd", "Qətmə", "Nəsihət", "Topbuz", "Ordan-burdan" adlı satirik şeirlər toplanmışdır. Dainin şeirlərinə dövri mətbuatda da rast gəlinir.

Əbdürrəhman Dainin əsərləri ərəb əlifbasından tranfoneliterasiya edilmiş, kitabı nəşrə hazırlanmışdır.

**Ədəbiyyat:**

1.Əbdürrəhman Dai. Rəhimli Səyyah. Bakı, 1917.
2.Əbdürrəhman Dai. Fəhlənin nitqi. Bakı, 1917.
3.Əbdürrəhman Dai. Qanqal. Bakı, 1919.

***Хадыева Сонаханым***

**КНИГИ АФБДУРРАХМАНА ДАИ**

**Резюме**

Абдуррахман Даи родился в Баку и является одной из жертв репрессий. Три его книги хранятся в Институте рукописей имени Мухаммада Физули НАНА. Его первое произведение «Милосердный путешественник» написано прозой, а «Рабочее слово» - стихами. Стихи на разные темы собраны в сборнике «Гангал». Работы Даи также публиковались в периодических изданиях. Произведения Даи были транслитерированы и книга была подготовлена к публикации.

**Ключевые слова:** *Абдуррахман Даи, книги, «Милосердный путешественник», «Рабочее слово», «Гангал».*

***Khadıyeva Sonakhanım***

**BOOKS OF ABDURRAHMAN DAI**

**Summary**

Abdurahman Dai was born in Baku and is one of the victims of repression. His three books are kept at the Institute of Manuscripts named after Mahammad Fuzuli of ANAS. His first work, “The Merciful Traveler” was written in prose.”The Worker's Speech” is a verse. Poems on various topics are collected in the collection called "Gangal". Dai's works have also been published in periodicals. Dai's works were transliterated. The book was prepared for publication.

**Key words:** *Abdurahman Dai, books, “The Merciful Traveler”, ”The Worker's Speech”, "Gangal".*

*Redaksiyaya daxil olma tarixi: 09.12.2020*
*Çapa qəbul olunma tarixi: 23.12.2020*

*Filologiya üzrə elmlər doktoru Azadə Musabəyli tərəfindən çapa tövsiyə olunmuşdur.*